**14.05.2024: xəbər**

## "GreenTech" Azerbaijan Startup and Green Technologies Competition

On May 1-2, 2024, "GreenTech" Azerbaijan Startup and Green Technologies competition was held under the organization of Innovation Center of Azerbaijan University of Technology. This event aligned with the goals outlined in the "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" document approved by the decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev and the 2024 "Green Growth" and "For a Green World" initiatives. It was held according to the decree on declaring the Year of Solidarity. The competition aimed to foster the development of an incubation environment for Technological Innovations and Green Technologies in Azerbaijan. The competition was divided into five categories: "Robotics Competition," "Projects Related to Energy Systems Engineering," "CI Competition for Sustainability," "Mechatronics Competition," and "Projects Related to Technologies for the Benefit of Humanity." During the event, teams showcased their ideas in an exhibition format and provided detailed information about their projects to interested attendees. At the conclusion, project assessors evaluated the teams and awarded 1st, 2nd, and 3rd places in each category. Khazar University was represented by Turan Huseynzadeh, Leyla Yusifzadeh, and Javidan Shukurov, 2nd and 3rd year students majoring in chemical engineering in this competition, in which 66 teams participated. They won a prize worth 200 manats. At the end of the event, AzerSun company presented gifts to the contestants.

## “GreenTech” Azərbaycan Startap və Yaşıl Texnologiyalar müsabiqəsi

2024-cü ilin 1-2 may tarixlərində Azərbaycan Texnologiya Universitetinin İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə “GreenTech” Azərbaycan Startap və Yaşıl Texnologiyalar müsabiqəsi keçirildi. Müsabiqə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021- ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa Dair Milli Prioritetlər"i sənədinin Təmiz Ətraf Mühit və “Yaşıl Artım” ölkəsi hədəfinə və 2024-cü ilin “Yaşıl Dünya Naminə Həmrəylik İli” elan edilməsi haqqında sərəncamına əsasən keçirildi. Müsabiqənin məqsədi Azərbaycanda Texnoloji Yeniliklər və Yaşıl Texnologiyalar istiqamətində inkubasiya mühitinin inkişafına dəstək olmaq idi. Müsabiqə “Robototexnika müsabiqəsi”, “Enerji sistemləri mühəndisliyi ilə bağlı olan layihələr”, “Davamlılıq

üçün Sİ Müsabiqəsi", "Mexatronika Müsabiqəsi", "İnsanlıq naminə olan texnologiyalar ilə bağlı olan layihələr" olmaqla 5 kateqoriyaya bölünmüşdü. Müsabiqə müddətində komandalar ideyalarını sərgi formatında təqdim edir, maraqlanan şəxslərə öz layihələri haqqında ətraflı məlumat verirdilər. Sonda isə layihəni qiymətləndirən şəxslər ayrı-ayrı komandalara yaxınlaşaraq hər kateqoriya üzrə 1,2 və 3-cü yerlərin seçimini etdirlər. 66 komandanın iştirak etdiyi bu müsabiqədə Xəzər Universitetini Kimya mühəndisliyi ixtisasında təhsil alan 2 və 3-cü kurs tələbələri Turan Hüseynzadə, Leyla Yusifzadə və Cavidan Şükürov təmsil edirdi.Onlar "Enerji sistemləri mühəndisliyi ilə bağlı olan layihələr" kateqoriyası üzrə iştirak edən komandalar arasında 3-cü yerə layiq görülərək 200 manat dəyərində mükafat qazandılar. Tədbirin sonunda AzərSun şirkəti tərəfindən müsabiqə iştirakçılarına hədiyyələr təqdim edildi.

